# Qəbələnin sosial-iqtisadi inkişafı möhkəm zəminə söykənir

## 2019-cu ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin hesabat MƏRUZƏSİ

*Qəbələ rayonunun sürətli inkişafı ulu öndərimiz Heydər Əliyevin bu rayonun gələcəyi ilə bağlı müəyyən etdiyi inkişaf proqramının nəticəsidir. Qəbələdə çəkilən yollar, salınan parklar və xiyabanlar, tikilən yeni binalar və sənaye müəssisələri həmin proqramın real həyatımızda təsdiqidir.*

**İlham ƏLİYEV.**



*Prezident İlham Əliyev Vəndam qəsəbəsindəki gülçülük istixanası ilə tanış olub.*

(Əvvəli 1-ci səhifədə).

çevirdiyini, iqtisadi tərəqqiyə geniş yol açan demokratikləşmə prosesinin uğurla həyata keçirildiyini bildirmişdir.

Cənab Prezidentin qeyd etdiyi kimi, iqtisadi və siyasi islahatların vəhdətliyi davamlı uğurları şərtləndirir, ölkənin hərtərəfli inkişafına xidmət edən sosial-iqtisadi layihələrin icrası sürətlənir.

Ölkə başçısının dediyi kimi bu gün Azərbaycanın beynəlxalq münasibətlər sistemində yerinin və rolunun möhkəmlənməsini şərtləndirən amillər aydın görünür. Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan kimi seçilməsində də ölkəmizdəki sabitlik əhəmiyyətli rol oynayır.

Tolerantlıq təcrübəsinin, multikultural dəyərlərin ümumi inkişafa verdiyi töhfələri yüksək dəyərləndirən cənab Prezident bu gün Azərbaycanın dünyaya sülh, əmin-amanlıq, birlik, həmərəylik mesajını ünvanlamaqla, eyni zamanda, bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinin vacibliyini öndə saxladığını vurğulamışdır.

“Bu gün Azərbaycan çox fərqli bir inkişaf modelini nümayiş etdirir” deyən cənab İlham Əliyev respublikamızın multikultural cəmiyyətlərin formalaşmasına töhfələrinin davamlı olduğunu, tolerant ölkə kimi nüfuz qazandığını diqqətə çatdırmışdır.

Hazırda mütərəqqi dünyada demokratik dəyərlərdən biri kimi qəbul edilən, bir çox Avropa ölkələrində təşkil olunan sərgilərin, təqdimatların, digər mədəni tədbirlərin İslam mədəniyyətini, dəyərlərini təbliğ və təcəssüm etdirdiyini söyləyən dövlətimizin başçısı müşavirədə diqqəti ötən il Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinə yönəldərək bildirmişdir ki, 70 ölkədən gəlmiş dini liderlər Azərbaycanda gedən proseslərə çox müsbət qiymət vermişlər. Azərbaycan multikultural ənənələrə, milli, dini dəyərlərə sadiq ölkə kimi özünü bu zirvə görüşündə təqdim etmişdir.

Ötən il ölkədə bütün sferalarda inqilabi xarakterli sosial islahatların gerçəkləşdirildiyini, çox geniş sosial paket həyata keçirildiyini deyən cənab İlham Əliyev həm müasir Azərbaycanın tarixində, həm də MDB məkanında bu dərəcədə böyük sosial paketin indiyədək reallaşmadığını vurğulamış, həyata keçirilən sosial paketin 4,2 milyon insanı əhatə etdiyini, minimum əməkhaqqının 2 dəfə, minimum pensiyanın 70 faiz, müavinətlərin 50 faizdən 2 dəfəyədək artırıldığını diqqətə çatdırmışdır.

Sosial infrastrukturla bağlı böyük işlər görüldüyünü, 60 tibb müəssisəsinin, 84 məktəbin tikildiyini və təmir edildiyini, 900-dən çox şəhid ailəsinin mənzillə təmin olunduğunu deyən cənab Prezident ünvanlı sosial yardımla bağlı 70 faiz artım olduğunu, bu proqramın hazırda 72 min ailəni əhatə etdiyini bildirmişdir.

İqtisadiyyatın, o cümlədən özəl sektorun inkişafı istiqamətində də sistemli islahatların 2019-cu ildə davam etdirildiyini qeyd edən cənab İlham Əliyev sahibkarların güzəştli kreditlərlə təmin olunmasının diqqətdə saxlanıldığını, ötən ilin əvvəlindən bugünədək 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat, o cümlədən 857 kiçik və orta həcmli layihələrə 24 milyon manat güzəştli kredit verildiyini vurğulamışdır.

Konfransda ölkə başçısı iqtisadiyyatın, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələnin başlandığını, bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik əngəllərin aradan qaldırılmasının, liberal biznes mühitinin formalaşdırılmasının diqqət mərkəzində saxlanıldığını qeyd etmişdir.

İslahatların nəticələrinin beynəlxalq hesabatlarda öz ifadəsini tapdığını, “Doing Business 2020” hesabatında islahatların aparılması sürətinə görə Azərbaycanın 190 ölkə arasında 34-cü yerdə olduğunu deyən cənab Prezident sosial-iqtisadi islahatlar strategiyasının Azərbaycanda yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdırmışdır.

**Hörmətli müşavirə iştirakçıları!**

2019-cu il ölkəmizdə olduğu kimi, Qəbələ rayonunun da ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı əlamətdar hadisələrlə zəngin olmuşdur. Bunlardan ən yadda qalanı isə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin ötən ilin oktyabr ayının 28-də rayonumuza səfəridir. Səfər zamanı dövlət başçısı çox mühüm sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşası davam edən tikintilərdə işlərin gedişi ilə maraqlanmışdır. Cənab Prezident görülən işlər barədə fikirlərini bildirərək müvafiq tapşırıqlar vermiş, qarşımıza yeni vəzifələr qoymuşdur.

**Hörmətli müşavirə iştirakçıları!**

Hesabat ili ərzində rayonumuzda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 320.205,2 min manatlıq ümumi məhsul istehsal edilmiş və xidmətlər göstərilmiş, ötən ilin müvafiq dövrünə nisbətən rayon üzrə ümumilikdə 10.951,6 min manat, yaxud 3,5 % artım olmuşdur. Keçən ilin müva-



*Prezident İlham Əliyev gülçülük istixanasının kollektivi ilə birlikdə.*

(Ardı 3-cü səhifədə).